## Moldova Respublikası ilə qida təhlükəsizliyi üzrə əməkdaşlıq

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Moldova Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi və bitki sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.

2025-ci il 11 aprel tarixində keçirilən Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 6-cı iclasında AQTA-nın sədr müavini Zəkiyyə Mustafayeva iştirak etmişdir. Komissiya çərçivəsində "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Moldova Respublikasının Milli Qida Təhlükəsizliyi Agentliyi arasında baytarlıq sahəsində əməkdaşlığa dair" Anlaşma Memorandumu imzalanmışdır.

2025-ci il 9 aprel tarixində AQTA-nın sədr müavini Zəkiyyə Mustafayevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Moldova Respublikasının Kənd Təsərrüfatı üzrə İntervensiya və Ödənişlər Agentliyinin direktor müavini Diana Koşalıkın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş təşkil edilmişdir. Görüş çərçivəsində iki ölkə arasında baytarlıq, fitosanitar və qida təhlükəsizliyi sahələri üzrə əməkdaşlığın inkişafı, ölkəmizdə heyvanların identifikasiyası və qeydiyyatı sistemi ilə bağlı həyata keçirilən islahatlar, heyvan xəstəliklərinin izlənilməsi, diaqnostikası sahəsində görülən tədbirlər barədə müzakirələr aparılmışdır.